**“Terrorçuluğa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 461-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Terrorçuluğa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 8, maddə 475; 2001, 11, maddə 676; 2002, 5, maddə 258; 2004, 3, maddə 133; 2005, 10, maddə 871; 2009, 2, maddə 46; 2010, 3, maddə 178; 2014, 4, maddə 329; 2016, 6, maddə 1003) 14-cü maddəsinə aşağıdakı məzmunda beşinci hissə əlavə edilsin:

“Bu maddənin üçüncü və dördüncü hissələrində nəzərdə tutulan birdəfəlik müavinət yalnız nağdsız qaydada ödənilir.”.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 iyun 2017-ci il
723-VQD